МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
АГРАРНЫЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

**Ахмедов Азер Афат оглы**

# РЕЗЕРВЫ ПОВЫШЕНИЯ ЭКОНОМИЧЕСКОЙ ЭФФЕКТИВНОСТИ ОТРАСЛЕЙ СЕЛЬСКОГО ХОЗЯЙСТВА
**(на примере Аранского экономического района)**

**5312.01- «Отраслевая экономика»**

## АВТОРЕФЕРАТ

диссертации на соискание научной степени
доктора философии по экономики

Гянджа– 2016

AZƏRBAYCAN RESPUBLİKASI
KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**Əhmədov Azər Afət oğlu**

# KƏND TƏSƏRRÜFATI SAHƏLƏRİNİN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ EHTİYATLARI
**(Aran iqtisadi rayonunun misalında)**

**5312.01 – "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim
edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

Gəncə - 2016

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetində yerinə yetirilib.

| | |
|---|---|
| **Elmi rəhbər:** | Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, iqtisad elmləri doktoru, professor **Ziyad Əliabbas oğlu Səmədzadə** |
| **Rəsmi opponentlər:** | İqtisad elmləri doktoru, professor **Bəyalı Xanlar oğlu Ataşov** |
| | İqtisad üzrə fəlsəfə doktoru, **Modinova Rəna Ramazan qızı** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu** |

Müdafiə 9 aprel 2016-cı il saat $10^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya Şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: AZ 2000, Gəncə şəhəri, A. İsgəndərov küçəsi 64, 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 7 mart 2016-cı ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **A.A. Həsənov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müasir dövrdə kənd təsərrüfatının davamlı inkişafının sürətləndirilməsinin əsas problemlərindən biri, bu sahənin iqtisadi səmərəliliyinin yüksəldilməsidir. İstehsalın səmərəliliyi – iqtisadi qanunların təsirini və təsərrüfat fəaliyyətinin son nəticəsini əks etdirən mürəkkəb iqtisadi kateqoriyadır. Azərbaycan Respublikasının Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramında qeyd olunduğu kimi, əhalinin ərzaq məhsullarına, sənayenin və kənd təsərrüfatı məhsullarına artan tələbatının ödənilməsi nəzərdə tutulmuşdur. Bu baxımdan kənd təsərrüfatının əsas vəzifəsi əkinçilik və heyvandarlıq sahələrində məhsul istehsalının əhəmiyyətli dərəcədə artırılmasıdır. Qeyd edilənlərin intensiv şəkildə yerinə yetirilməsi "Əhalinin ərzaq məhsulları ilə dayanaqlı təminatı" proqramının ardıcıl həyata keçirilməsinə kömək edəcəkdir.

Kənd təsərrüfatında məhsul bolluğunun yaradılmasının əsas yolu – bitkiçilik və heyvandarlıq sahələrinin elmi və qabaqcıl təcrübə əsasında idarə edilməsindən və istehsalın intensivləşdirilməsindən ibarətdir. Bu tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatı məhsullarının artmasına, ən az vəsait və əmək sərf etməklə daha çox məhsul əldə etməyə imkan verəcəkdir.

Dövlət proqramının yerinə yetirilməsində artıq bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Xüsusilə kənd təsərrüfatının maddi-texniki bazası kifayət qədər möhkəmləşdirilmiş, işçilərin maddi maraqları artırılmış və kənd təsərrüfatı iqtisadiyyatının möhkəmləndirilməsi sahəsində bir sıra sosial-iqtisadi tədbirlər yerinə yetirilmişdir. Tədbirlərin həyata keçirilməsi sayəsində istehsalın iqtisadi səmərəliliyi xeyli artırılmışdır. Digər tərəfdən son dövrlərdə ölkə Prezidentinin verdiyi silsilə fərmanlar kənd təsərrüfatının gələcək inkişafını təmin edəcəkdir. Bu baxımdan kənd təsərrüfatı sahələrinin iqtisadi səmərəliliyinin yüksəldilməsinə həsr edilmiş dissertasiya mövzusu aktual olub, mühüm elmi-praktiki əhəmiyyət kəsb edir.

**Problemin öyrənilmə vəziyyəti.** Kənd təsərrüfatı sahələrinin iqtisadi səmərəliliyinin yüksəldilməsi ilə bağlı məsələlər hər zaman iqtisadçı-alimlərin diqqət mərkəzində olmuşdur. Xüsusilə, bazar münasibətləri şəraitində kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi problemi ilə bağlı bir çox iqtisadçı-alimlər tərəfindən tədqiqatlar aparılmışdır. Qeyd edilən məsələnin tədqiq olunmasında B.X.Ataşovun, H.B.Allahverdiyevin, A.D.Cahangirovun, A.T.Əhmədovun, İ.V.Əhmədovun, A.K.Ələsgərovun, G.A.Gənciyevin, M.C.Hüseynovun, M.Ə.Hüseynovun, İ.H.İbrahimovun, E.İbrahimovun, İ.Ş.Qarayevin, E.Quliyevin, Ə.Ə.Mahmudovun, R.F.Məm-

mədovun, S.A.Mirzəyevin, R.R.Modinovanın, A.Nadirovun, Z.A.Səmədzadənin, S.V.Salahovun, və digər alimlərin əsərləri mühüm yer tutur.

İqtisadi səmərəlilik problemləri ilə məşğul olan xarici ölkələrinin alimləri arasında L.İ.Abalkin, E.N.Barisenko, V.F.Maşenkov, A.Q.Usaçov, A.S.Butalov, Y.T.Buzilov, Y.Rumyanseva, U,Q.Qusmanov, V.E.Rıbalkin, U.Petti, A.Smitt, C.Keyns, D.Rikardo, K.Marks, B.Samuelson, A.Marşal, M.Fridman və digərlərinin nəşrlərini qeyd etmək olar.

Son illər ərzində respublikada iqtisadiyyatın müxtəlif aspektləri üzrə elmi-praktiki konfranslar keçirilmiş və onların materialları əsasında toplu icmallar nəşr olunmuşdur. Dərc olunmuş materiallar şübhəsiz ki, çox dəyərli olmasına baxmayaraq, onlar tədqiq edilən mövzunun bütün aspektlərini tam əhatə etməmişdir. Xüsusilə, iqtisadi səmərəliliyə sahə nöqteyi-nəzərindən yanaşma və bazar münasibətləri şəraitində kənd təsərrüfatı istehsalında iqtisadi səmərəliliyinin yüksəldilməsi problemi üzrə bir çox mühüm məsələlər tədqiq edilmişdir. Bütün bunlar, mövzunun seçimini və tədqiqatının əsas istiqamətlərini müəyyənləşdirmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Aran iqtisadi rayonunda kənd təsərrüfatı sahələrinin inkişafının müasir vəziyyətini və onların iqtisadi səmərəlilik səviyyəsini müəyyənləşdirməkdən, məhsul istehsalının artırılmasına mənfi təsir göstərən amillərin aşkar edilməsindən və kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün tədbirlərin hazırlanmasından ibarətdir.

Qeyd edilən məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin və onun yüksəldilməsinin əhəmiyyəti şərh edilmişdir;
- kənd təsərrüfatı məhsulları istehsalının səmərəliliyinin qiymətləndirilməsi üçün göstəricilər sistemi və meyarları müəyyən edilmişdir;
- Aran iqtisadi rayonunda kənd təsərrüfatı sahələrinin iqtisadi səmərəliliyinin müasir vəziyyəti təhlil olunmuşdur;
- Aran iqtisadi rayonunda kənd təsərrüfatının ixtisaslaşdırılmasının əsas istiqamətləri araşdırılmışdır;
- Aran iqtisadi rayonunda bitkiçilik və heyvandarlıq sahələrinin iqtisadi səmərəliliyinin yüksəldilməsinə təsir edən amillər müəyyənləşdirilmişdir;
- kənd təsərrüfatında məhsuldarlığın və məhsul keyfiyyətinin artırılması ilə bağlı iqtisadi səmərəliliyinin yüksəldilməsi şərh olunmuşdur;
- kənd təsərrüfatının iqtisadi səmərəliliyinə investisiyalarının təsiri verilmişdir;



- kənd təsərrüfatı sahələrinin iqtisadi səmərəliliyinin yüksəldilməsində intensivləşmənin rolu şərh edilmişdir;
- istehsalın təşkili formalarının qiymətləndirilməsi və onun iqtisadi səmərəyə təsiri göstərilmişdir.

**Tədqiqatın obyekti** – Azərbaycan Respublikasının Aran iqtisadi rayonunun təsərrüfatları.

**Tədqiqatın predmetini** kənd təsərrüfatı sahələrinin iqtisadi səmərəliliyini xarakterizə edən məcmu göstəricilər sistemi və bazar münasibətləri şəraitində məhsul istehsalının səmərəliliyinin qiymətləndirilməsi üsulları təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** dünya iqtisad elminin klassiklərinin əsərləri, milli və xarici alimlərinin elmi tədqiqatları, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Azərbaycan Respublikasının ali qanunvericilik orqanının qəbul etdiyi qanunlar və qərarlar, normativ-hüquqi aktlar təşkil edir.

Tədqiqatların aparılmasında iqtisadi təhlil, statistik qruplaşdırma, müqayisəli təhlil, konstruktiv- hesablama, monoqrafik, müşahidə və sair metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları, Kənd Təsərrüfatı nazirliyinin materialları, rayon və təsərrüfatlarının toplu hesabatları və elmi-tədqiqat institutlarının materialları təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi, aşağıdakılardan ibarətdir:**

- kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyi nəzəri cəhətdən əsaslandırılmışdır;
- kənd təsərrüfatı sahələrinin iqtisadi səmərəliliyinin müəyyən edilməsi üzrə göstəricilər sistemi təsnifləşdirilmişdir;
- kənd təsərrüfatında iqtisadi səmərəliliyin yüksəldilməsi məqsədilə Aran iqtisadi rayonunda istehsalın səmərəli ixtisaslaşdırılmasına dair təkliflər verilmişdir;
- kənd təsərrüfatı sahələrinin məhsuldarlığının yüksəldilməsinə dair ehtiyat mənbələri müəyyənləşdirilmişdir;
- qruplaşma materialları əsasında məhsuldarlığın yüksəldilməsinin bitkiçilik məhsulları istehsalının iqtisadi səmərəsinə təsiri qiymətləndirilmişdir;
- maya dəyərinin aşağı salınmasının və məhsulun keyfiyyətinin yüksəldilməsinin kənd təsərrüfatı məhsullarının rentabelliyinə təsiri əsaslandırılmışdır;

- bitkiçilik sahəsinin iqtisadi səmərəliliyinin yüksəldilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlanmışdır;
- heyvandarlıq sahələrinin davamlı inkişafını və iqtisadi səmərəliliyinin yüksəldilməsi məqsədilə əsaslı təkliflər irəli sürülmüşdür;
- kənd təsərrüfatının inkişafına investisiya qoyuluşlarının təsiri müəyyən edilmiş və onlardan səmərəli istifadə edilməsinə dair təkliflər irəli sürülmüşdür;
- kənd təsərrüfatının intensivləşdirilməsinin istehsalın səmərəliliyinin yüksəldilməsinə təsiri qiymətləndirilmişdir.

**İşin praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələrindən və irəli sürülən tövsiyələrdən kənd təsərrüfatı istehsalının inkişafına dair Dövlət Proqramlarında istifadə oluna bilər. Eyni zamanda, kənd təsərrüfatında iqtisadi səmərəliliyin yüksəldilməsi üzrə tədbirlərdən digər iqtisadi rayonların təsərrüfatlarında da istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunması.** Tədqiqatın nəticələri Azərbaycan Kooperasiya Unversitetində (Bakı-2012) və Bakı Biznes Universitetlərində (Bakı-2014) keçirilmiş beynəlxalq elmi-praktiki konfransların materiallarında, «Экономическая эффективность отраслей растениеводства и пути ее повышения в Аранском экономическом районе» (Баку 2014), «Повышение экономической эффективности отраслей сельского хозяйства с ростом урожайности и качества продукции» (Баку 2014), «Влияние инвестиций на экономическую эффективность сельскохозяйственного производства» (Москва - 2014) adlı məqalələrdə öz əksini tapmışdır.

Tədqiqatın nəticə və təklifləri Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Mərkəzinə təqdim olunmuş və istifadə üçün qəbul edilmişdir (arayış №31/13-425, 13 XI 2014 ).

Dissertasiyanın mövzusu üzrə 11 iş, o cümlədən ümumi həcmi 3.9 ç.v. olan 7 elmi məqalə nəşr edilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.**

Dissertasiya – giriş, üç fəsil, nəticə və 145 adda ədəbiyyat siyahısından ibarətdir. Ümumi həcmi 141 səhifə olub, tərkibində 32 cədvəl, 1 sxem və 1 qrafik verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə vəziyyəti, məqsəd və vəzifələri, nəzəri-metodoloji



əsasları, tədqiqatın obyekti, predmeti və informasiya bazası, işin elmi yeniliyi və praktiki əhəmiyyəti verilir. Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunması göstərilir.

**Dissertasiyanın birinci fəslində "Bazar münasibətləri şəraitində iqtisadi səmərəliliyin elmi-nəzəri əsasları"** şərh olunur. Burada, kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyi və onun yüksəldilməsinin mahiyyəti göstərilir, kənd təsərrüfatında səmərəliliyin meyarları və göstəricilər sistemi araşdırılır.

Azərbaycanın kənd təsərrüfatı hər zaman iqtisadiyyatın digər sahələrinin donoru kimi, ölkənin mühüm məsələlərinin həlli üçün milli gəlirinin yaradılmasında əsas mənbə olmuşdur. 2013-cü ilin ümumi daxili məhsulun strukturunda kənd təsərrüfatının payı 5,2% təşkil etmişdir. 2013-cü ildə dənli bitkilərin istehsalı 2000-ci ilə nisbətən 1,8 dəfə, kartof istehsalı 2,1 dəfə, tərəvəz 1,6 dəfə, meyvə 1,7 dəfə artmışdır. Bunlarla yanaşı, ət istehsalı 1,9 dəfə (kəsilmiş çəkidə), süd 1,7 dəfə, yun 1,5 dəfə, yumurta 2,3 dəfə artmışdır. Tədqiqat göstərir ki, istehsalın son nəticələri, bəzən istifadə olunan resursların kəmiyyəti və keyfiyyəti ilə bağlı olmur, o əsasən istehsalın hansı konkret şəraitdə aparılmasından asılı olur. Bunun üçün, torpaqdan, işçi qüvvəsindən və maddi resurslardan səmərəli istifadə olunması məqsədilə, bitkiçilik və heyvandarlıq sahələrinin səmərəli əlaqələndirilməsinə nail olunmaq lazımdır. İctimai əmək bölgüsünün təkmilləşdirilməsi zamanı konkret rayonların xüsusiyyətləri nəzərə alınmalıdırlar. Azərbaycanda kənd təsərrüfatının planlı iqtisadiyyatdan bazar münasibətlərinə keçidi, səmərəlilik anlayışını, kənd təsərrüfatı müəssisələrinin fəaliyyətini və kənd təsərrüfatının regional səviyyəsində yenidən qiymətləndirilməsini tələb etmişdir.

Tədqiqat göstərir ki, istehsalın səmərəliliyi, iqtisadi kateqoriya kimi çıxış edir. Kənd təsərrüfatında onun dörd səmərəlilik növü vardır: istehsal-texnoloji; istehsal-iqtisadi; sosial-iqtisadi və ekoloji, lakin, iqtisadi səmərəliliyin qeyd olunmuş növləri heçdə bu kateqoriyanın xarakterini, kəmiyyət və keyfiyyət tərəfini birmənalı olaraq açmır. Kənd təsərrüfatında iqtisadi səmərəliliyinin məğzinin aşkar edilməsi üçün bu problemin tədqiqatı ilə məşğul olmuş müəlliflər müxtəlif fikirlər irəli sürürlər. Bəzi müəlliflər iqtisadi səmərəlilik anlayışı altında, bilavasitə iki kəmiyyətin nisbətini başa düşürlər, bunlar fəaliyyətin nəticələri – effekt və məsrəflərdir. Digərləri isə iqtisadi səmərəliliyi yalnız rentabelliyə bərabər tuturlar. Lakin, qeyd etmək lazımdır ki, rentabellik iqtisadi səmərənin mövcudluğu ilə bağlıdır və istehsal potensialından səmərəli istifadə edilməsi dərəcəsini göstərir.

Kənd təsərrüfatında həyata keçirilən müxtəlif tədbirlərin qiymətləndirilməsi üçün iqtisadi səmərəliliyin meyarından istifadə edilir. Ümumiyyətlə, iqtisadi səmərəliliyin meyarını geniş təkrar istehsalı təmin edə bilən fəaliyyət nəticələri təşkil edir. Geniş təkrar istehsal zamanı kənd təsərrüfatının inkişafının prinsipial sxemi aşağıda göstərilir.




**Sxem 1. Kənd təsərrüfatının səmərəli təşkilinə dair prinsipial sxem.**

İstehsalın səmərəli təşkili prinsiplərinin əsasında, texnoloji, iqtisadi, təşkilatı, sosial və ekoloji amillər sistemi müəyyənləşdirilmişdir. Bununla yanaşı, hər-hansı bir qrupun bir-neçə amilləri birlikdə kənd təsərrüfatının səmərəli təşkili prosesinə öz təsirini göstərir.

Kənd təsərrüfatında iqtisadi səmərəlilik meyarı resurslardan istifadə edilməsindən və istehlak dəyərlərindən asılıdır. İstehlak dəyərini, (kənd təsərrüfatı məhsulu) faydalı effekt kimi aşkar edilməsi yalnız istehlak mərhələsində olanda mümkündür. Məhz bu mərhələdə, istehsalın necə təşkil etdiyi, nə dərəcədə məqsədəuyğun olması, istehsal edilmiş məhsula olan tələbat üzə çıxır. İstehsalın son məqsədi yeni buraxılmış məhsulun hesabına həyata keçirilir. Ümumi gəlirin artımı əməyin məhsuldarlığı ilə



bərabər maddiləşmiş əməyin qənaətini də əks etdirir. Canlı və maddiləşmiş əməyin ən az sərf olunması hesabına xalis məhsulun artırılması kənd təsərrüfatında iqtisadi səmərəlilik meyarıdır. Buna, torpaq, maddi və əmək resurslarından səmərəli istifadə edilməsi nəticəsində nail olunur.

Araşdırmalar göstərir ki, təsərrüfatların praktiki fəaliyyətlərinin dərin və hərtərəfli təhlili, kənd təsərrüfatı məhsulunun iqtisadi səmərəliliyinin müəyyən edilməsi xüsusi iqtisadi göstəricilər sisteminin olmasını tələb edir.

Bu göstəricilər aşağıdakılardan ibarətdir:

a) torpaq vahidinə və sərf edilmiş bir adam-günə (adam-saat) istehsal olunmuş kənd təsərrüfatı məhsulunun həcmi;

b) bir sentner məhsulun maya dəyəri;

c) 1 ha əkin sahəsindən əldə edilən ümumi və xalis gəlirinin həcmi;

d) rentabellik norması və ictimai əməyin məhsuldarlıq səviyyəsi;

Yuxarıda qeyd olunmuş göstəricilərin iqtisadi səmərəliliyinin müxtəlif tərəflərini əks etdirilməsinə baxmayaraq, bu kifayət etmir. Torpağın istifadə edilməsi dərəcəsinin və əmək məsrəflərini nəzərə alan digər göstəricilərin də təhlil olunması zəruridir. Bu göstəricilərə ümumi məhsulun həcmi, 1 adam-gün (adam-saat) üzrə ümumi və xalis gəlir, hər 100 manata düşən istehsal xərcləri, hər 100 hektara vəsait və əmək məsrəfləri aiddir. Son nəticədə, iqtisadi səmərəliliyin müəyyən edilməsi üçün mövcud göstəricilər sistemi vardır. Əsas məsələ ondan ibarətdir ki, bu göstəricilərin hansı-biri iqtisadi səmərəliliyin meyarıdır?

Bu məsələnin araşdırılmasında xüsusilə, akademik V.S. Nemçinovun "Heyvandarlıq sahələrinin və bitkilərin yerləşdirilməsi meyarları haqqında", A. Libkindinin "Təsərrüfatların rentabelliyinin yüksəldilməsi yolları", Q.Q. Kotovun "təsərrüfatlarda sahələrin gəlirliyini müəyyən edilməsi barədə", V.Q. Venjerin "məhsulun maya dəyərinin və istehsal məsrəflərinin hesablanması metodikasının bəzi sualları" və digər işlərin qeyd olunması vacibdir. Xüsusilə, K.P. Obolenskinin redaksiyası altında müəlliflər qrupu ilə yazılmış "İqtisadi səmərəliliyin müəyyən etmə metodları" və "İqtisadi səmərəliliyin problemləri" adlı işləri hesab etmək olar. Bu işlərdə, qeyd olunur ki, birincisi - "bütün hallarda iqtisadi səmərəliliyin meyarı ictimai əməyin məhsuldarlığının yüksəldilməsi və məhsul vahidi dəyərinin azaldılması qalır", ikincisi – "iqtisadi səmərəlilik, qaçılmaz olaraq müxtəlif konkret formalarda özünü göstərməlidir... Kənd təsərrüfatı məhsulları istehsalının müqayisəli səmərəliliyinin xarakterizə olunması üçün müxtəlif göstəricilərdən istifadə olunmasında zərurət vardır. Kənd təsərrüfatı məhsulunun istehsalının səmərəliliyini müəyyən etmək üçün K.P. Obolenski aşağıdakı göstəricilərindən istifadə olunmasını tövsiyə edir:

a) hər 100 ha əkin sahəsinə, adam-günə (adam-saata) və əsas istehsal fondlarının hər 100 manatına məhsul istehsalı;
b) bir adam-günə (adam-saata) hesablanan xalis gəlir;
c) Bütün xərclərin hər 100 manatına hesablanan məhsul istehsalı.

Yuxarıda qeyd olunmuş göstəricilərdən fərqli olaraq, bütün xərclərin hər 100 manatına hesablanan məhsul istehsalı, təsərrüfat fəaliyyətinin nəticələrini və onun iqtisadi səmərəliliyini daha dolğun şəkildə əks etdirir. Burada, istehsal edilmiş məhsulun həcmi onun istehsalına sərf edilmiş bütün xərcləri ilə tutuşdurulur.

K.P. Obolenskinin redaksiyası altında bir sıra müəlliflər qrupu tərəfindən hazırlanmış metodika iqtisadi səmərəliliyinin göstəricisi sayılan, rentabellik norması öz əksini tapmamışdır. Lakin, bir qrup iqtisadçılar (N.R. Karotamm, D.İ. Aronov, Z.V. Atlas, Q.K.Rusakov və digərləri) hesab edirlər ki, rentabellik norması iqtisadi səmərəliliyin əsas və ümumiləşdirici göstəricisidir.

Yuxarıda qeyd olunanlardan görünür ki, iqtisadi ədəbiyyatda bu məsələ ilə bağlı bir çox fikirlər söylənilir, bu baxımdan belə bir nəticəyə gəlmək olar ki, kənd təsərrüfatı məhsullarının istehsalının iqtisadi səmərəliliyinin müəyyən edilməsi üçün hər-hansı bir meyardan istifadə etmək olmaz, çünki bu halda tam və dolğun cavabın alınması mümkün deyildir. Bununla əlaqədar, kompleks göstəricilərdən istifadə olunması məqsədəuyğundur.

Müxtəlif sahələrin müqayisəli iqtisadi səmərəliliyini müəyyən edilməsi zamanı aşağıdakı göstəricilərdən istifadə edilməsi zəruridir:

- 1 hektar və 1 adam-günə (adam-saata) istehsal edilən kənd təsərrüfatı məhsulunun həcmi;
- 1 ha əkin sahəsinə düşən ümumi və xalis gəlirin həcmi;
- 1 sentner məhsulun maya dəyəri;
- rentabellik norması.

Qeyd edilən göstəricilər kənd təsərrüfatı sahələrinin müqayisəli təhlilinə və onun qiymətləndirilməsinə imkan verir.

Bunlarla yanaşı, aşağıda göstərilən əlavə göstəricilərdən də istifadə olunur:

bir adam-günə (adam-saata) düşən ümumi məhsulun, ümumi gəlirin və xalis gəlirin həcmi;

- hər 100 manat istehsal xərclərinə;
- hər 100 ha torpaq sahəsinə.

**Dissertasiyanın ikinci fəslində**, "Kənd təsərrüfatının əsas sahələrinin iqtisadi səmərəliliyinin müasir vəziyyəti" şərh olunur. Aran iqtisadi



rayonunun iqtisadi xarakteristikası verilir, bitkiçilik və heyvandarlıq sahələrinin iqtisadi səmərəliliyi təhlil edilir.

Ərazisinə görə Aran iqtisadi rayonu respublikanın ən iri rayonlarından biri sayılır. Bu iqtisadi rayonun tərkibinə 18 inzibati rayon daxildir. Onlardan 14-ü kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğuldur. İqtisadi rayonun əhalisi (Şirvan və Mingəçevir şəhərlərini istisna etməklə) 1887,7 min nəfərdir, onlardan 1235,9 min nəfəri əməkqabiliyyətli əhalidir.

2013-cü ildə ümumi torpaq sahəsi 2843.0 min ha təşkil etmiş, (o cümlədən 1461,1 kənd təsərrüfatı üçün yararlı sahələrdir) 681.7 min ha əkin sahəsi, 29,2 min ha çoxillik bitkilər və 671.0 min ha digər torpaq sahələri olmuşdur.

Aran iqtisadi rayonunun təsərrüfatlarının uğurlu inkişafı, ilk növbədə, əkin sahələrindən düzgün istifadə olunmasından asılıdır. Yəni istifadə olunan torpaqlardan yüksək məhsuldarlıq əldə etmək və minimum vəsait və əmək sərf etməklə daha çox məhsul əldə etməkdən ibarətdir. Bu məqsədlə əkin üçün nəzərdə tutulmuş kənd təsərrüfatı bitkilərinin düzgün seçimi və yerləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Cədvəl 1

Aran iqtisadi rayonunda əkin sahələrinin quruluşu

| | 2000 | | 2005 | | 2013 | | 2013-cü il 2000-ci ilə nisbətən, % |
|---|---|---|---|---|---|---|---|
| | min. ha | xüsusi çəkisi, % | min. ha | xüsusi çəkisi, % | min. ha | xüsusi çəkisi, % | |
| Dənli bitkilər, cəmi | 238,9 | 50,7 | 275,3 | 46,5 | 330,9 | 48,6 | 138,5 |
| Pambıq | 92,8 | 19,7 | 99,1 | 16,7 | 26,1 | 3,8 | -28,1 |
| Şəkər | - | - | 1,2 | 0,2 | 1,6 | 0,2 | - |
| Günəbaxan | 1,9 | 0,4 | 5,2 | 0,9 | 2,4 | 0,4 | 126,3 |
| Kartof | 5,2 | 1,1 | 7,4 | 1,3 | 7,6 | 1,1 | 146,2 |
| Tərəvəz | 16,8 | 3,6 | 27,4 | 4,6 | 26,8 | 3,9 | 159,5 |
| Bostan | 17,9 | 3,8 | 20,5 | 3,5 | 19,9 | 2,9 | 111,2 |
| Yemlik bitkilər | 97,4 | 20,7 | 156,0 | 26,3 | 266,4 | 39,1 | 2,7 d. |
| Cəmi əkin sahəsi | 470,9 | 100,0 | 592,1 | 100,0 | 681,7 | 100,0 | 144,8 |

Cədvəldən göründüyü kimi, 2000-2013-cü illər ərzində pambıq əkin sahəsindən başqa bütün kənd təsərrüfatı bitkilərinin əkin sahələri artmışdır.

Bununla yanaşı, Aran iqtisadi rayonunda çoxillik bitkilərin sahələri də inkişaf etdirilmişdir. 2000-ci ilə nisbətən 2013-cü ildə çoxillik bitkilərin sahəsi 180,2%, o cümlədən, üzümlüklər 171,4%, meyvə-giləmeyvə 181,1% təşkil etmişdir. Lakin, kənd təsərrüfatı bitkilərin məhsuldarlığı qənaətbəxş olmamışdır. Bunu aşağıda verilən cədvəlin göstəricilərindən də görmək olar. (Cədvəl 2).

Bitkilərin illər üzrə məhsuldarlığın artmasına baxmayaraq ümumilikdə məhsuldarlıq səviyyəsi çox aşağıdır. .

Digər tərəfdən, Aran iqtisadi rayonunun bir sıra təsərrüfatların təcrübəsi göstərir ki, torpaqdan düzgün istifadə etməklə ayrı-ayrı kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını 2,5 – 3 dəfə artırılmaq mümkündür.

Aran iqtisadi rayonunda 2000-ci ilə nisbətən 2013-cü ildə dənli və paxlalıların istehsalı 1,5 dəfə, kartof 2,1 dəfə, tərəvəz 2,7 dəfə, üzüm 1,5 dəfə, meyvə və giləmeyvə istehsalı 1,7 dəfə artmışdır. Eyni zamanda, müqayisə olunan illər ərzində pambıq istehsalı xeyli azalmışdır.

Cədvəl 2

Aran iqtisadi rayonunda əsas kənd təsərrüfatı məhsulları istehsalı və məhsuldarlığı

| | 2000 | | 2005 | | 2013 | | 2013-cü il 2000-ci ilə nisbətən, % | |
|---|---|---|---|---|---|---|---|---|
| | min ton | məhsul-darlıq s\ha | min ton | məhsul-darlıq s\ha | min ton | məhsul-darlıq s\ha | min ton | məhsul-darlıq s\ha |
| Dənli və paxlalılar | 632,2 | 26,7 | 812,1 | 29,5 | 945,1 | 28,6 | 149,5 | 107,1 |
| Pambıq | 84,4 | 9,2 | 173,3 | 17,5 | 50,5 | 19,3 | -59,8 | 209,8 |
| Şəkər çuğunduru | - | - | 11,6 | 100,0 | 110,2 | 341,0 | - | - |
| Günəbaxan | 1,2 | 8,7 | 7,5 | 14,8 | 4,4 | 18,6 | 3,7 d. | 2,1 d. |
| Kartof | 43,4 | 84,0 | 71,6 | 96,0 | 89,9 | 119,0 | 207,1 | 141,7 |
| Tərəvəz | 156,3 | 92,0 | 286,6 | 103,0 | 354,1 | 133,0 | 226,6 | 144,6 |
| Üzüm | 16,7 | 57,8 | 16,8 | 69,3 | 25,1 | 73,8 | 150,3 | 127,7 |
| Meyvə, giləmeyvə | 129,0 | 93,0 | 157,5 | 94,5 | 216,0 | 96,9 | 167,4 | 104,2 |

Pambıq istehsalının azalması, onun əkin sahəsinin azaldılması ilə bağlı olmuşdur.

Aran iqtisadi rayonunda heyvandarlıq sahəsinə xüsusi diqqət yetirilir. Sürü quruluşunun əsasını iri buynuzlu mal-qara və qoyunlar təşkil edirlər. Heyvandarlıq əsasən ət-süd və ət-yun istiqamətində inkişaf edir. Son illər ərzində heyvandarlığın inkişafı sahəsində Aran iqtisadi rayonun təsərrüfatlarında bəzi irəliləyişlər əldə edilmiş, heyvanların baş sayı nəzərə çarpacaq dərəcədə artmışdır. Beləliklə, son on il ərzində iri buynuzlu mal-



qaranın sayı 36,1%, o cümlədən inəklər 38,5%, qoyun və keçilər 43,2%, quşlar 47,0% artmışdır.

Aran iqtisadi rayonunda heyvandarlığın məhsuldarlığı hələ də aşağı səviyyədə qalmaqdadır. 2013-cü ildə bir inəkdən orta süd sağımı 1310 kq, bir qoyundan yun qırxımı 2,0 kq, quşların orta illik yumurtalamaq qabiliyyəti 197 yumurta təşkil etmişdir.

Məlum olduğu kimi, kənd təsərrüfatı istehsalının ixtisaslaşmasını xarakterizə edən əsas göstəricilər, ümumi və əmtəəlilik məhsulun strukturu, əmək məsrəfləri, pul gəliri və digərləridir. Ümumi və əmtəəlilik məhsulun quruluşu, əmək məsrəfləri və digər göstəricilər üzrə aparılmış təhlil göstərir ki, Aran iqtisadi rayonunda kənd təsərrüfatı istehsalının mövcud ixtisaslaşması taxıl-tərəvəz, heyvandarlıq istiqamətlərində inkişaf edir. Qeyd etmək lazımdır ki, 1990-cı ilədək Aran iqtisadi rayonunun əsas aparıcı sahəsi pambıqçılıq olmuşdur. 1990-cı ildən sonra pambığın əkin sahələri kəskin şəkildə azalmışdır. Hal-hazırda, pambıqçılığın gəlirli sahə olmasını nəzərə almaqla dövlət tərəfindən Aran iqtisadi rayonunda bu sahənin inkişaf etdirilməsinə böyük önəm verilir.

Hesablamalar göstərir ki, 2000-ci ilə nisbətən 2013-cü ildə Aran iqtisadi rayonu üzrə əsas istehsal vasitələri 1,3 dəfə artmış, o cümlədən binalar, qurğular və sair 3,7%, maşın və avadanlıqlar 7,0%, nəqliyyat vasitələri 1,2%, mal-qara 0,3%. Həmin illər ərzində üzümlüklərin sahələrinin kəskin azaldılması nəticəsində çoxillik bitkilərin sahəsi 6,3% azalmışdır.

Əsas istehsal vasitələrinin artımı əsasən aqrolizinqin təşkil olunması, traktorlar, kombaynlar, nəqliyyat vasitələrinin, digər kənd təsərrüfatı yönümlü maşın və avadanlıqların alınması hesabına baş vermişdir. Aqrolizinqlər, vaxtaşırı olaraq kənd təsərrüfatının müasir texnikaya olan tələbatını təmin edirlər.

Texniki təminat ilə yanaşı təsərrüfatların enerji gücləri də artırılır. Müqayisə olunan illərdə Aran iqtisadi rayonu üzrə enerji gücləri 1,2 dəfə artmışdır. Enerji güclərin artımı əsasən mühərriklərin hesabına baş vermişdir. Təsərrüfatlarda enerji güclərin artımı nəticəsində əməyin enerji tutumu artmış və bir orta işçiyə 3,4 – 4,1 a.g., bir şərti traktorunun illik işləməsi 370-420 ha olmuşdur.

Əmək ehtiyatlarından səmərəli istifadə təsərrüfatların iqtisadi inkişafının həlledici amilidir. Əmək ehtiyatlarının istifadə səviyyəsini iki göstərici ilə xarakterizə etmək mümkündür: təsərrüfatda sərf edilmiş iş vaxtı və iş vaxtı vahidi üzrə istehsal edilmiş məhsulun miqdarı, yəni əmək məhsuldarlığı. Təsərrüfatların iqtisadiyyatının inkişafı üçün hər iki

göstəricinin vacib əhəmiyyəti vardır. Əmək ehtiyatlarından düzgün istifadə olunması istehsal edilən məhsulun həcminin və gəlirlərin artırılmasına, əmək məhsuldarlığının yüksəldilməsinə imkan verəcəkdir.

Kənd təsərrüfatının sahələri üzrə əmək ehtiyatlarının bölüşdürülməsinin təhlili göstərir ki, əmək ehtiyatlarının əsas hissəsi bitkiçilik və heyvandarlıq sahələrində cəmləşmişdir. Aran iqtisadi rayonunun əməkqabiliyyətli əhalisinin 78,2% bitkiçilikdə, 21,8% heyvandarlıqda məşğuldur.

Beləliklə, yuxarıdakıları nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, Aran iqtisadi rayonunda işçi qüvvənin bölüşdürülməsi kifayət dərəcədə səmərəli olmamışdır

Dissertasiyada kənd təsərrüfatının ayrı-ayrı sahələrin iqtisadi səmərəliliyinin müasir vəziyyətinin təhlil göstərir ki, Aran iqtisadi rayonunun bütün təsərrüfatlarında mövcud olan taxıl istehsalının səmərəliliyi böyük maraq kəsb edir.

Cədvəl 3

Aran iqtisadi rayonunda dənli bitkilər istehsalının iqtisadi səmərəliliyi

| | Kənd təsərrüfatı müəssisələri | | | Fərdi sahibkarlar | | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2005 | 2013 | 2000 | 2005 | 2013 |
| Əkin sahəsi, ha | 6211 | 7204 | 23897 | 100050 | 268133 | 282690 |
| Məhsuldarlıq ha/s | 22,7 | 23,8 | 18,3 | 26,8 | 29,6 | 23,0 |
| Maya dəyəri 1s, manat | 9,0 | 8,6 | 14,4 | 7,1 | 6,5 | 10,2 |
| Əmək məsrəfləri 1s, adam-saat | 11,5 | 11,5 | 10,1 | 10,6 | 10,7 | 10,3 |
| Satış qiyməti 1s, manat | 8,9 | 13,7 | 26,1 | 9,7 | 11,9 | 20,2 |
| Xalis gəlir 1s, manat | -0,1 | 5,1 | 11,7 | 2,6 | 5,4 | 10,9 |
| Satılmış məhsulun rentabelliyi, % | -1,1 | 59,3 | 81,2 | 36,6 | 83,1 | 98,0 |

Cədvəldən görünür ki, taxıl istehsalının səmərəliliyi ildən-ilə artır, lakin Aran iqtisadi rayonunun bir sıra təsərrüfatlarında taxıl istehsalının vəziyyəti qeyri-qənaətbəxşdır. Taxılçılıq təsərrüfatlarının səmərəli olmasına baxmayaraq, taxılın məhsuldarlığı lazımı səviyyədə deyil, taxılın məhsuldarlığı 2005-ci ilə nisbətən əhəmiyyətli dərəcədə aşağı düşmüş və onun 1 sentnerinin maya dəyəri artmışdır.

Aran iqtisadi rayonu keçmiş illərdə olduğu kimi, hal-hazırda da pambıq istehsalının əsas bazasıdır. Misal üçün, 1985-ci ildə bütün respublika üzrə 787,8 min ton pambıq istehsal olunmuş və onun 98% Aran iqtisadi rayonunun payına düşmüşdür. İstehsalın yeni sistemlərinə keçidlə əlaqədar pambığın əkin sahəsi kəskin şəkildə azalmışdır. 2013-cü ildə bütün respublika üzrə 57,0 min ton pambıq istehsal olunmuş və onun 50.5 min tonu Aran iqtisadi rayonunun təsərrüfatlarında istehsal edilmişdir.



Cədvəl 4.

Aran iqtisadi rayonunda pambıq istehsalının iqtisadi səmərəliliyi.

| | Kənd təsərrüfatı müəssisələri | | | Fərdi sahibkarlar | | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2005 | 2013 | 2000 | 2005 | 2013 |
| Əkin sahəsi, ha | 12997 | 2901 | 2690 | 79831 | 96177 | 23430 |
| Məhsuldarlıq ha/s | 9,2 | 16,9 | 17,4 | 9,4 | 17,9 | 21,3 |
| Maya dəyəri 1s, manat | 26,1 | 21,6 | 36,4 | 13,4 | 13,3 | 24,9 |
| Əmək məsrəfləri 1s, adam-saat | 68,8 | 63,9 | 61,8 | 61,1 | 53,2 | 61,9 |
| Satış qiyməti 1s, manat | 18,1 | 28,7 | 41,1 | 17,2 | 27,0 | 40,9 |
| 1 ortaillik işçiyə istehsal edilmiş ümumi gəlir, manat | 585 | 2434 | 13974 | - | 661 | 22870 |
| Xalis gəlir 1s, manat | - 8,0 | 7,1 | 5,2 | 3,8 | 13,7 | 16,0 |
| Satılmış məhsulun rentabelliyi, % | -30,6 | 32,9 | 14,3 | 28,4 | 103,0 | 64,2 |

Məlumatların təhlili göstərir ki, satış qiymətləri təxminən eyni səviyyədə olduğu halda, təsərrüfatlarda istehsalın səmərəliliyi kəskin şəkildə fərqlənir. Burada, məhsuldarlığın və əməyin məhsuldarlığının ən yüksək səviyyəsi fərdi sahibkarların təsərrüfatlarında müşahidə olunmuşdur. Məhsul vahidinə sərf olunmuş yüksək məsrəflərin də qeyd olunmasına ehtiyac var, bu da onunla bağlıdır ki, müasir şəraitdə pambıq istehsalında işlər əl əməyi ilə həyata keçirilir.

Qeyd etmək lazımdır ki, tərəvəzçilik çox əməktutumlu sahələrdən biridir. Mexanikləşdirmənin müasir səviyyəsində burada, çoxlu vəsait və əl əməyi sərf edilir.

Cədvəl 5

Aran iqtisadi rayonunda tərəvəz istehsalının iqtisadi səmərəliliyi

| | Kənd təsərrüfatı müəssisələri | | | Fərdi sahibkarlar | | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2005 | 2013 | 2000 | 2005 | 2013 |
| Əkin sahəsi, ha | 858,6 | 1370 | 1533,2 | 15957,4 | 26030 | 24452,8 |
| Məhsuldarlıq ha/s | 89,7 | 98,8 | 116,4 | 95,1 | 107,5 | 151,0 |
| Maya dəyəri 1s, manat | 7,3 | 5,2 | 9,0 | 3,3 | 2,8 | 14,0 |
| Əmək məsrəfləri 1s, adam-saat | 44,7 | 23,1 | 23,0 | 21,9 | 29,7 | 23,0 |
| Satış qiyməti 1s, manat | 5,7 | 9,0 | 14,6 | 7,2 | 15,6 | 26,7 |
| Xalis gəlir 1s, manat | - | 3,8 | 5,6 | 3,9 | 12,8 | 12.7 |
| Satılmış məhsulun rentabelliyi, % | - | 73,1 | 62,2 | 118,2 | 457,1 | 90,7 |

Cədvəldən göründüyü kimi, tərəvəzin əsas istehsalçıları fərdi sahibkarlardır. 2013-cü ildə bu təsərrüfatlarda hər hektardan 151,0 sentner tərəvəz alınmışdır. Bir sentner tərəvəzin maya dəyəri 14,0 manat səviyyəsində olaraq onun satışından 26,7 manat əldə edilmiş və rentabelliyin səviyyəsi 90,7% təşkil etmişdir. 2013-cü ildə bir sentnerdən alınmış xalis gəlir 2000-

ci ilə nisbətən təqribən 3,3 dəfə yüksək olmuşdur. Təhlil göstərir ki, kənd təsərrüfatı müəssisələrinə nisbətən fərdi sahibkarların təsərrüfatlarında tərəvəzin məhsuldarlığı 29,7%, 1 sentnerin satış qiyməti 82.9%, 1 sentnerdən xalis gəlir 2,3 dəfə və rentabellik səviyyəsi 28,5% yüksək olmuşdur. Belə ki, tərəvəz üzrə əkin sahələrinin artırılması ilə bərabər, hər hektardan alınan məhsulun da həcmi artır və onun maya dəyəri aşağı düşür.

Aran iqtisadi rayonunun iqtisadiyyatında üzümçülük xüsusi yer tutur, üzümçülüyün iqtisadi səmərəliliyini aşağıdakı cədvəldən görmək olar

Cədvəl 6

Aran iqtisadi rayonunda üzüm istehsalının iqtisadi səmərəliliyi

| | Kənd təsərrüfatı müəssisələri | | Fərdi sahibkarlar | |
|---|---|---|---|---|
| | 2005 | 2013 | 2005 | 2013 |
| Bar verən üzümlüklərin sahəsi, ha | 176 | 772,5 | 938 | 1195 |
| Məhsuldarlıq ha/s | 69,3 | 73,8 | 75,3 | 79,7 |
| Maya dəyəri 1s, manat | 13,9 | 26,3 | 12,8 | 36,2 |
| Əmək məsrəfləri 1s, adam-saat | 43,9 | 44,0 | 45,4 | 43,8 |
| Satış qiyməti 1s, manat | 26,0 | 16,6 | 26,0 | 48,1 |
| Xalis gəlir 1s, manat | 12,1 | -9,7 | 13,2 | 11,9 |
| Satılmış məhsulun rentabelliyi, % | 87,0 | -36,9 | 103,1 | 32,9 |

Kənd təsərrüfatı müəssisələrinə nisbətən, fərdi sahibkarlıq təsərrüfatlarında üzümçülük daha səmərəli olmuşdur. Fərdi sahibkarların təsərrüfatlarında hər hektardan məhsuldarlıq 79,7 sentner olmuş, üzümçülüyün rentabelliyi 32,9%, bir sentnerin maya dəyəri 36.2 manat, bir sentnerə düşən əmək məsrəfləri 43,8 adam-saat, xalis gəlir isə 11,9 manat təşkil etmişdir. Bu sahənin gəlirli olduğunu Sabirabad, Kürdəmir, Ucar və digər rayonlarının fərdi sahibkar təsərrüfatlarının təcrübəsi də göstərir. Qeyd olunan təsərrüfatlarda üzümün məhsuldarlığı 90 ha/s olmuş, hər sentnerə 21,3-29,0 adam-saat sərf edilmiş və rentabellik səviyyəsi 42,9 – 50,0 faiz təşkil etmişdir.

Tədqiqat işində, kartof, yem bitkilərinin, meyvə və giləmeyvə istehsalının iqtisadi səmərəliliyi də hesablanmışdır.

Kənd təsərrüfatı sahələrinin iqtisadi səmərəliyinin ehtiyat mənbələrini aşkar etmək məqsədilə təsərrüfatlar əkin sahələrinə görə qruplaşdırılmış və məhsuldarlığın yüksəldilməsinin iqtisadi səmərəliliyə təsiri müəyyənləşdirilmişdir.

Beləliklə, bitkiçiliyin bütün sahələrində iqtisadi səmərəliliyi yüksəltmək üçün aşağıdakı təkliflərin həyata keçirilməsi məqsədəuyğun hesab edirik:



1. mexanikləşmə, kimyalaşma və meliorasiya əsasında kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi, müasir elmi nailiyyətlərin əsasında texnoloji üsullarının tətbiqi;
2. bitkiçiliyin maddi-texniki bazasının yaradılması: kənd təsərrüfatının maşın və mexanizmlərinin təkmilləşdirilməsi, məhsulların xüsusi anbarlarda saxlaması, parnik təsərrüfatlarının genişləndirilməsi və sair;
3. məhsulun becərilməsi və yığılması üzrə kompleks mexanikləşdirmənin, sənaye texnologiyaların tətbiq edilməsi, əl əməyi sərfinin aradan qaldırılması və onun məhsuldarlığının yüksəldilməsi;
4. istehsalın ixtisaslaşmasının təkmilləşdirilməsi;
5. məhsulun keyfiyyətinin yaxşılaşdırılması üçün tədbirlər sisteminin həyata keçirilməsi, istehsalın rentabelliyinin yüksəldilməsi;

Bitkiçiliyin iqtisadi səmərəliliyinin yüksəldilməsi üzrə konkret tədbirlərin işlənməsi, sahənin ekoloji səmərəliliyinin yüksəldilməsinə imkan yaradacaqdır.

Aran iqtisadi rayonunda heyvandarlıq sahəsi mühüm yer tutur. Burada, heyvandarlıq əsasən ətlik-südlük, qoyunçuluqda ətlik-yunluq istiqamətində inkişaf edir.

Tədqiqat göstərir ki, heyvandarlıqda iribuynuzlu mal-qaranın məhsuldarlığı hələ çox aşağı səviyyədədir. Məhsuldarlığın aşağı olmasının əsas səbəbi, yem bazasının qeyri qənaətbəxş və onların keyfiyyətinin aşağı olmasıdır.

Cədvəl 7

Aran iqtisadi rayonunun təsərrüfatlarında iribuynuzlu mal-qara ətinin istehsalının iqtisadi səmərəliliyi

| | Kənd təsərrüfatı müəssisələri | | | Fərdi sahibkarlar | | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2005 | 2013 | 2000 | 2005 | 2013 |
| 1 baş iribuynuzlu mal-qaranın orta illik çəkisi, kq | 210 | 246 | 276 | 230 | 277 | 345 |
| 1 sentner çəki artımının maya dəyəri, manat | 98,9 | 115,2 | 246,5 | 87,2 | 99,1 | 198,2 |
| 1sentner ətə, əmək məsrəfləri, adam-saat | 320,2 | 277,7 | 263,2 | 257,7 | 250,2 | 261,1 |
| 1 sentner ətin satış qiyməti, manat | 80,7 | 179,3 | 379,4 | 79,9 | 156,3 | 286,7 |
| 1 sentner ətdən xalis gəlir, manat | - | 63,1 | 132,9 | - | 57,2 | 88,5 |
| Ət istehsalının rentabelliyi, % | - | 54,3 | 53,8 | - | 57,7 | 44,6 |

Yuxarıda verilən məlumatlardan göründüyü kimi, mal-qaranın məhsuldarlığının aşağı olması ət istehsalının iqtisadi səmərəliliyinə öz təsirini göstərmişdir. Belə ki, 2000-ci ildə hər iki təsərrüfat formasında iribuynuzlu mal-qara ətinin istehsalı qeyri-rentabelli olmuşdur. Aran iqtisadi rayonunda süd istehsalı ilə məşğul olan təsərrüfatların sahədaxili ixtisaslaşma yolu ilə inkişaf etdirilir.

Araşdırmalar göstərir ki, bir inəkdən orta illik süd sağımı çox aşağı səviyyədədir. 2000-ci ildə bu göstəricinin səviyyəsinin aşağı olması nəticəsində kənd təsərrüfatı müəssisələrində süd istehsalı zərərlə başa

Cədvəl 8

Aran iqtisadi rayonun təsərrüfatlarında süd istehsalının iqtisadi səmərəliliyi

| | Kənd təsərrüfatı müəssisələri | | | Fərdi sahibkarlar | | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2005 | 2013 | 2000 | 2005 | 2013 |
| Bir sağmal inək üzrə Orta illik süd sağımı, kq | 1000 | 1110 | 1209 | 1140 | 1235 | 1310 |
| Bir sentner südün maya dəyəri, manat | 29,2 | 15,9 | 32,0 | 13,3 | 12,9 | 25,6 |
| 1 sentner südə, əmək məsrəfləri, adam-saat | 54,1 | 48,6 | 48,0 | 48,0 | 48,0 | 39,1 |
| 1 sentner südün satış qiyməti, manat | 21,7 | 28,2 | 46,1 | 22,2 | 17,8 | 39,5 |
| 1 sentner süd üzrə xalis gəlir, manat | - | 12,3 | 14,1 | 8,9 | 4,9 | 13,5 |
| Süd istehsalının rentabelliyi, % | - | 77,4 | 44,1 | 66,9 | 38,0 | 52,7 |

gəlmişdir. 2013-cü ildə bu təsərrüfatlarda 1 sentner südün maya dəyər 32,0 manat, əmək məsrəfləri 48 adam-saat, xalis gəlir 14,1 manat, rentabellik 44,1% təşkil etmiş, fərdi sahibkarların təsərrüfatlarında bu göstəricilər müvafiq olaraq 25,6 manat, 39,1 adam-saat, 13,5 manat və 52,7% olmuşdur. Göründüyü kimi, fərdi sahibkar təsərrüfatlarının iqtisadi göstəriciləri kənd təsərrüfatı müəssisələrinin göstəricilərindən bir qədər yüksəkdir.

Aran iqtisadi rayonunun ət balansında əsas yer qoyun ətinə məxsusdur. Qoyunçuluq əsasən zərifyunlu, yarı-zərifyunlu, qabayunlu istiqamətdə inkişaf edir.

Qoyun əti istehsalının iqtisadi səmərəliliyin təhlili göstərir ki, qoyun və keçilərin məhsuldarlığı çox aşağı səviyyədədir. 2000-ci ildə məhsuldarlıq səviyyəsinin aşağı olması səbəbindən qoyun əti istehsalı zərərlə başa gəlmişdir.

Fərdi sahibkarların təsərrüfatlarında qoyun əti istehsalının nəticələri bir qədər fərqli olmuşdur. Belə ki, kənd təsərrüfatı müəssisələrinə nisbətən



fərdi sahibkarın təsərrüfatlarında 1 baş heyvanın orta diri çəkisi 1,3 dəfə çox olmuş, 1 sentner çəki artımının maya dəyəri 31,9 manat ucuz başa gəlmiş, 1 sentner qoyun ətinə sərf olunmuş əmək məsrəflərinin həcmi 2,3 adam-saat aşağı olmuş, rentabellik isə 1,3% artmışdır.

Tədqiq olunan rayonlarda mühüm məsələlərdən biri də yun istehsalı olmuş və onun iqtisadi səmərəliyini aşağıdakı rəqəmlərlə təsvir etmək mümkündür. 2000-ci və 2013-cü illərdə kənd təsərrüfatı müəssisələrində yun istehsalının nəticələri zərərlə qeydə alınmışdır. Eyni dövrlərdə fərdi sahibkarlar təsərrüfatlarında isə yun istehsalı bir qədər fərqli olmuş, istehsalın maya dəyəri və əmək məsrəfləri azalmış, 1 sentner yunun satış qiyməti və 1 sentner yundan əldə edilən xalis gəlirin məbləği artmışdır. Buna baxmayaraq, yun istehsalının rentabellik səviyyəsi dinamik olaraq aşağı düşdürdü.

Tədqiqat göstərir ki, qoyunçuluq sahəsinin iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün möhkəm yem bazasının yaradılmasına ehtiyac vardır.

Dissertasiyada quşçuluq məhsullarının təhlilinə geniş yer verilmiş və müasir quşçuluq fabrikləri ilə müqayisədə fərdi təsərrüfatlarda məhsul istehsalının iqtisadi səmərəliliyinin çox aşağı olması aydın şəkildə göstərilmişdir.

Beləliklə, Aran iqtisadi rayonunda heyvandarlıq sahəsinin müasir vəziyyətinin təhlili göstərir ki, heyvandarlıq sahələrində məhsul istehsalının səmərəliliyinin aşağı olması istehsal olunmuş məhsulun keyfiyyətinin aşağı düşməsidir.

Aran iqtisadi rayonunda heyvandarlığın inkişafı və onun iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün aşağıda verilən təkliflərin nəzərə alınmasına ehtiyac vardır:

- Aran iqtisadi rayonunda möhkəm yem bazasının yaradılması. Yem keyfiyyətinin yüksəldilməsi, zülal-vitaminli əlavələrdən istifadə olunması, yığım və saxlanma zamanı yem itkilərinin aradan qaldırılması;
- heyvanların saxlanılması prosesinin intensivləşdirilməsi nəticəsində onların məhsuldarlığının yüksəldilməsi, tam dəyərli rasionlarından istifadə edərək optimal yemləmə normalarının tətbiq edilməsi, yemləmə müddətinin azaldılması, cavan heyvanların sayının artırılması və heyvanların qorunması səviyyəsinin yüksəldilməsi üçün baytarlıq tədbirlərin həyata keçirilməsi;
- heyvandarlığın səmərəli ixtisaslaşdırılması;
- ixtisaslaşmış təsərrüfatlarda heyvandarlıq məhsulunun istehsalında sənaye üsullu texnologiyaların tətbiqi, onlardan kənd təsərrüfatı müəssisələrində və fərdi sahibkar təsərrüfatında geniş istifadə olunması;

• seleksiya və damazlıq üzrə aparılan işlərin səviyyəsinin yüksəldilməsi üçün sənaye üsullu texnologiyaların tətbiqi zamanı, qabaqcıl təcrübə və elmin son nailiyyətlərinə kifayət qədər diqqətin yetirilməməsi;

• işlərin əmək tutumluğunun imkan daxilində aradan qaldırılması, iş günü rejiminin təkmilləşdirilməsi, maddi marağın, əmək məhsuldarlığının və kadrların peşəkarlıq səviyyəsinin artırılması;

• Aran iqtisadi rayonunun kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkarlar və digər təsərrüfatlarında heyvandarlıq məhsulu istehsalının yaxşılaşdırılması ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi.

Qeyd edilən bu və digər tədbirlərin həyata keçirilməsi istehsal olunan məhsulun həcminin əhəmiyyətli dərəcədə artırılmasına imkan verəcək, maya dəyərini aşağı salacaq, ümumiyyətlə heyvandarlığın rentabelliyini və iqtisadi səmərəliliyini yüksəldəcəkdir.

**Dissertasiyanın üçüncü fəslində "Kənd təsərrüfatı sahələrinin iqtisadi səmərəliliyinin yüksəldilməsinin əsas yolları" göstərilir.** Burada, məhsuldarlığın və məhsul keyfiyyətinin artımı əsasında bitkiçilik sahələrinin səmərəliliyinin yüksəldilməsi müəyyən edilir. İntensivləşmənin kənd təsərrüfatının iqtisadi səmərəliliyinin yüksəldilməsinin əsas yolu olduğu praktiki olaraq sübut edilir. Kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinə təsir edən investisiyaların və maddi marağın rolu aşkarlanır, istehsalın səmərəli təşkili formaları verilir.

Əsas bitkiçilik məhsulları istehsalının vacib şərtlərindən biri əkin sahələrinin quruluşunun təkmilləşdirilməsi, məhsuldarlığın artımı və məhsul keyfiyyətinin yüksəldilməsidir. Dissertasiyada inzibati rayonlarının qabaqcıl təsərrüfatları üzrə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının yüksəldilməsi ehtiyatları göstərilir: növbəli əkin sistemlərindən düzgün istifadə olunması; vaxtı-vaxtında və yüksək keyfiyyətli becərmə işlərinin aparılması; əlverişli aqrotexniki müddət ərzində cins (sort) toxumların səpini; kifayət miqdarda orqanik və mineral gübrələrdən istifadə olunması; alaq otları, ziyanvericilər və xəstəliklərlə mübarizə, vaxtı-vaxtında və itkisiz olaraq məhsulun yığılması.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, pambıqçılıqda yeddi tarlalı pambıq-yonca növbəli əkini yüksək səmərə verir. Bu tip növbəli əkində pambığın xüsusi çəkisi 71,5% təşkil edir. Meliorasiya işlərinin aparılması tələb edilən sahələrdə isə altı tarlalı pambıq-yonca növbəli əkinindən istifadə olunması məqsədəuyğun hesab edilir, pambığın xüsusi çəkisi 64,6%-dir.

Aran iqtisadi rayonunun təsərrüfatlarında taxıl növbəli əkinlərindən də istifadə olunması məqsədəuyğundur (taxılın xüsusi çəkisi 66.4%).



Heyvandarlıq sahəsinin, xüsusən süd-ət istiqaməti təsərrüfatlarda, yeddi tarlalı yem bitkilərinin növbəli əkinlərinin tətbiq olunması məsləhət görülür.

Bitkiçilik və heyvandarlıq sahələrində səmərəliliyin yüksəldilməsinin mühüm ehtiyatlarından biri məhsulun keyfiyyətinin artırılmasıdır. Məhsulun keyfiyyət təsərrüfat fəaliyyətinin bütün tərəflərini əhatə edir. Bütün planlaşdırma, idarəetmə mexanizmləri, mənəvi və maddi maraq sistemləri məhsul keyfiyyətinin yüksəldilməsinə yönəldilməlidir.

Məhsulun keyfiyyətinin yüksəldilməsinin mahiyyətini nəzərə alaraq, ona təsir edən amillər aşkar olunmuş və məhsulun keyfiyyətin yüksəldilməsi üçün elmi-cəhətdən əsaslandırılmış təkliflər hazırlanmışdır.

Bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatının intensivləşdirilməsi iqtisadi səmərəliliyin yüksəldilməsinin mühüm ehtiyatı sayılır. Kənd təsərrüfatı istehsalının mexanikləşdirilməsi, kiymyalaşdırması və torpaqların meliorasiyası onun əsas istiqamətləridir.

Müasir şəraitdə mexanikləşmə aqrotexniki işlərin reallaşdırılmasını və məhsuldarlığın yüksək səviyyəsini təmin edən əsas vasitəsidir. Eyni zamanda, əmək məhsuldarlığının qaldırılmasına geniş imkan yaradır. Hazırda, enerji təminatı və maşın, alətlərin mövcudluğu əməktutumlu sahələrdə ayrı-ayrı iş proseslərinin yüksək səviyyədə mexanikləşməsinə imkan verir.

İstehsal xərclərinin ümumi həcmində əmək haqqı ödənişinin üstünlük təşkil etdiyini nəzərə alaraq, pambıq və tərəvəz istehsalı prosesində ayrı-ayrı işlər üzrə əmək məsrəflərinin quruluşu təhlil olunmuşdur. Bu məqsəd üçün müxtəlif məhsuldarlıq səviyyəsinə malik olan təsərrüfatların məlumatlarından istifadə olunmuşdur.

Müəyyən edilmişdir ki, pambıq və tərəvəz məhsulunun yığımında əmək məsrəfləri üstünlük təşkil edir Aran iqtisadi rayonunun bu aparıcı sahələrinin səmərəliliyinin yüksəldilməsi üçün yığım prosesində əl əməyinin aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir.

Taxılçılıq təsərrüfatında müasir texnikanın mövcudluğu torpağın hazırlanmasından başlayaraq, məhsulun yığımınadək bütün istehsal prosesləri mexanikləşdirilməlidir. Bu da taxılçılıqda əmək məhsuldarlığının yüksəlməsinə səbəb olur.

Beləliklə, məlum olur ki, istehsal proseslərinin mexanikləşdirilməsinə çoxlu vəsait və əmək sərf etməklə maksimum məhsul əldə etmək olar.

Tədqiqat göstərir ki, kənd təsərrüfatı sahələrinin iqtisadi səmərəliliyinin yüksəldilməsində kimyalaşma mühüm yer tutur. Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq institutunun sınaqları göstərir ki, pambığın becərilməsinə mineral gübrələrindən istifadə olunması 4 - 4,7 ha/s həcmində əlavə

məhsulun alınmasını təmin edir. Eyni zamanda, üzvü gübrələrindən istifadə olunması nəticəsində 5 ha/s əlavə məhsulun alınması mümkündür. Saatlı rayonun kənd təsərrüfatı müəssisələrinin təcrübəsi göstərir ki, peyinin superfosfatla qarışdırılmış şəkildə istifadəsindən 5,7 ha/s əlavə məhsulun alınması mümkündür.

Dissertasiyada mineral gübrələrin sahələrin iqtisadi səmərəliyinə göstərdiyi təsiri müəyyən etmək məqsədi ilə sahələrə verilən gübrələrin miqdarları üzrə qruplaşmalar aparılmışdır. Hesablamalar göstərir ki, mineral gübrələrin həcminin artırılması nəticəsində pambığın məhsuldarlığı rentabelliyi, 1 sentnerə və 1ha düşən xalis gəlir artmışdır.

Aran iqtisadi rayonunda əkin sahələrinin meliorasiya işlərinin yaxşılaşdırılması, su təminatının artırılması bütün kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının və kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün vacib şərtlərindən biridir. Ciddi səviyyədə şoranlaşmış və bitkilər üçün yarasız sayılan ərazilər Kürdəmir, Ucar, Yevlax, Salyan, Neftçala və Sabirabad rayonlarına məxsusdur. Bu torpaqların şoranlıq xarakteri sulfat natriumlu və nisbətən az xlor tərkiblidir. Qrunt sularının səviyyəsinin artması rayonlar üçün xüsusi təhlükə kəsb edir, şoran torpaqların genişlənməsinə imkan yaradır. Burada, qrunt sularının ildən-ilə torpaq səthinə yaxınlaşması müşahidə olunur, torpaqların şoranlaşmasına və bataqlığa çevrilməsinə səbəb olur. Şoran torpaqların yuyulması ilə əlaqədar kollektor-drenaj şəbəkəsinin tikintisinə ehtiyac vardır.

Çoxillik təcrübələr göstərir ki, torpağın meliorasiya vəziyyətinin pisləşməsinin əsas səbəbi yuyulan ərazilərinin qeyri-qənaətbəxş planirovkasıdır. Ərazinin düzgün planirovkasının olmaması məhsuldarlığı xeyli aşağı salır. Beləliklə, irriqasiya-meliorasiya tikintisi qüsurlarının aradan qaldırılmasında, meliorasiya işlərinin keyfiyyətinin yaxşılaşdırılması, torpaqların şoranlaşmasının və suvarmada su itkilərinin qarşının alınması, mühəndis və aqrotexniki üsulların tətbiq edilməsi torpağın münbitliyinin yüksəlməsinin və torpağın qorunmasının həlledici amili olacaqdır.

Dövlət tərəfindən aqrar sektorun maliyyələşdirilməsinə və investisiyaların qoyuluşlarına böyük diqqət göstərilir. Bununla əlaqədar, kənd təsərrüfatı istehsalına yönəldilən investisiya qoyuluşlarının təsirinin qiymətləndirilməsinin və maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsinin mühüm əhəmiyyəti vardır.

Tədqiqatlar göstərir ki, 2000 - 2013-cü illər ərzində kənd təsərrüfatına yönəldilən kapital qoyuluşlarının həcmi əhəmiyyətli dərəcədə artmışdır.






**Qrafik 1.** Kənd təsərrüfatına yönəldilən kapital qoyuluşlarının həcmi, mln.manat.

Yuxarıda verilmiş məlumatlardan göründüyü kimi, 2000-ci ilə nisbətən 2013-cü ildə kənd təsərrüfatına yönəldilmiş kapital qoyuluşu 99.8 dəfə artmışdır.

Tədqiqat göstərir ki, son illər ərzində investisiyaların artımı kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin genişlənməsinə şərait yaratmış və bu hal əsasən çoxillik bitkilərin ərazilərində öz əksini tapmışdır.

Digər tərəfdən, kənd təsərrüfatının inkişaf etdirilməsi üçün iri həcmli investisiya qoyuluşları, kənd yerlərində istehsal, sosial və bazar infrastrukturlarının yaradılmasını, kənd təsərrüfatında emal sənayesinin formalaşdırılmasını, geniş meliorasiya işlərinin keçirilməsini, yeni suvarma sistemlərinin tətbiq olunmasını və sair tədbirlərin həyata keçirilməsini təmin edəcəkdir.

Kənd təsərrüfatı sahələrinin iqtisadi səmərəlilik səviyyəsinin artırılmasında mühüm ehtiyatlarından biri – istehsalın daimi artırılması, əmək təşkilinin təkmilləşdirilməsi, əmək məhsuldarlığının durmadan yüksəlməsi və işçilərin maddi maraqlarının artırılmasıdır. Dissertasiyada bu məsələlərə geniş yer verilmişdir. Eyni zamanda, mütərəqqi əmək haqqı sistemlərinə və əmək məhsuldarlığının yüksəldilməsinə dair təkliflər irəli sürülmüşdür.

Dissertasiyanın sonunda ümumiləşdirilmiş nəticələr, bitkiçilik və heyvandarlıq sahələrində iqtisadi səmərəliliyin yüksəldilməsinə təsir edən konkret təkliflər və tövsiyələr verilmişdir.

Dissertasiyanın mövzusu üzrə aşağıdakı məqalələr dərc edilmişdir:

1. Bazar iqtisadiyyatı strukturlarının fəaliyyətinin iqtisadi səmərəliliyi. "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəlməsi". Beynəlxalq elmi-praktiki konfransın materialları, Azərbaycan Kooperasiya Universiteti, Bakı, 27-28 iyun, 2012, 0,5 ç.v.
2. Böyük İqtisadi Ensiklopediya I-V cild, kollektiv müəlliflər "Şərq-Qərb" nəşriyyat evi, Bakı, 2012.
3. Критерии и основные показатели определения экономической эффективности сельскохозяйственного производства. «Kooperasiya» jurnalı №21, Bakı, 2012, 0.5 ç.v.
4. Azərbaycanın regionları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, kollektiv müəlliflər, Bakı, 2013, 48.8 ç.v.
5. Azərbaycanın Statistik Göstəriciləri, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, kollektiv müəlliflər, Bakı, 2013, 51 ç.v.
6. Azərbaycan və Rusiya, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, kollektiv müəlliflər, Bakı, 2013, 21.5 ç.v.
7. Экономическая эффективность отраслей растениеводства и пути его повышения в Аранском экономическом районе. "Sivil bazar iqtisadiyyatı münasibətlərinin inkişaf istiqamətləri" Beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı Biznes Universiteti, Bakı 5-6 may 2014, 0.4 ç.v.
8. Влияние инвестиции на экономическую эффективность сельскохозяйственного производства. Международный технико-экономический журнал, №5, Москва, 2014, 0,7п.л.
9. Повышение экономической эффективности отраслей сельского хозяйства с ростом урожайности и качества продукции. Bakı Biznes Universiteti, "Audit" jurnalı, №4, Bakı 2014, 0.5 ç.v.
10. Экономическая эффективность производства продукции животноводства. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının iqtisadiyyatı və Təşkili İnstitutu, Elmi əsərlər, jurnal №4, Bakı, 2014, 0.7 ç.v.
11. Экономическая эффективность производства хлопка-сырца в хозяйствах Аранского экономического района, Bakı Biznes Universiteti, "Audit" jurnalı, №3, Bakı 2015. 0.5 c.v.



## РЕЗЮМЕ

**АХМЕДОВ АЗЕР АФАТ оглы**

**Резервы повышения экономической эффективности отраслей сельского хозяйства**
**(на примере Аранского экономического района)**

В ведении диссертационной работы обосновывается актуальность выбранной темы, описываются теоретико-методологические основы исследования, показана научная новизна, практическое значение апробация результатов исследования и их применение.

Первая глава освещает «Научно-теоретические основы экономической эффективности сельского хозяйства в условиях рыночных отношений». Здесь, описываются значение и особенности экономической эффективности сельскохозяйственного производства, освещаются система показателей и критерии экономической эффективности сельского хозяйства,

Во-второй главы диссертации выясняется «Современное состояние экономической эффективности основных отраслей сельского хозяйства». Анализируется, экономическая характеристика сельского хозяйства и экономическая эффективность отраслей растениеводства и животноводства в Аранском экономическом районе.

Третья глава диссертации называется: «Пути повышения экономической эффективности основных отраслей сельского хозяйства». Здесь, были показаны влияние продуктивности и качества продукции на экономическую эффективность отраслей сельского хозяйства, роль интенсификации, инвестиций, эффективной организации производства и материальной заинтересованности работников в повышении экономической эффективности отраслей сельского хозяйства.

В конце диссертации были представлены научно обоснованные выводы и предложения.

## SUMMARY

### AZER AHMEDOV

### Reserves of increasing the economic efficiency in branches of agriculture (on example of the Aran economic region)

The introductory part of dissertation gives substantiation of actuality of the topic, describes theoretical and methodological bases of study, highlighting scientific novelty and practical significance, testing of results of research and its usage.

Chapter I of the dissertation is dedicated to "Scientific and theoretical bases of economic efficiency of agriculture in conditions of the market relations".

This part describes the essence and particularities of the economic efficiency of the agricultural production, criteria and a system of efficiency indicators in agriculture.

The second chapter of the dissertation investigates "Current condition of economic efficiency of main branches of the agriculture". Here are analyzed economic characteristics of agriculture, and economic efficiency of plant growing and livestock in the Aran economic region.

The third chapter of the dissertation called "Ways of increasing the economic efficiency of main branches of the agriculture". This chapter has shown influence of productivity and quality of production to increasing of economic efficiency of branches of agriculture, the role of intensification and impact of investment in increasing of efficiency of agricultural production and role of efficient organization of production and material incentive in increasing of economic efficiency.

In conclusion part of the dissertation are presented scientifically grounded results and proposals.





Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 019, tiraj 100

**Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi**

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102